# “Azərbaycan Yurd Bilgisi”

**AMEA-nın akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunda “Azərbaycan Yurd Bilgisi (1932, 1933, 1934-cü illər)” adlı kitab çap olunub. Kitaba 1932-ci ildən azərbaycanlı mühacirlərin İstanbulda nəşr etdirdikləri, eyni zamanda türkologiya sahəsində öz töhfəsini verən geniş həcmli bir jurnal olan “Azərbaycan Yurd Bilgisi”nin materialları tərcümə edilərək kitaba daxil edilib.**




“Azərbaycan Yurd Bilgisi” dərgisinin ilk nəşrindən 76 il sonra türkiyəli profesor Şükrü Haluk Akalın bu dərginin 1932-1934-cü illərdə nəşr olunan bütün nömrələrini toplayaraq 2008-ci ildə kitab halında nəşr etdirmişdi.

884 səhifəlik həcmli kitabda həmin materiallar Azərbaycan dilinə tərcümə edilərək çap edilib. Jurnalın 1932-ci il nömrələri mərhum şərqşünas alim filologiya üzrə fəlsəfə doktoru Sədaqət Qasımlı, 1933-cü il nömrələri filologiya üzrə fəlsəfə doktoru, dosent Barat Osmanova, 1934-cü ildə çıxan nömrələri isə elmi işçi Emiliya Xəlilova tərəfindən tərcümə edilib. Kitabın elmi redaktoru akademik Gövhər Baxşəliyevadır.

Cəmi üç il nəşr edilən jurnalın baş redaktoru Gəncədə anadan olmuş, türkologiya sahəsində sanballı araşdırmalar aparmış məşhur alim professor Əhməd Cəfəroğlu olub.

Jurnal nəşr olunmağa başladığı gündən etibarən görkəmli alimlərin Azərbaycan dili, ədəbiyyatı, folkloru, tarixi, mifologiyası, ictimai-siyasi, ədəbi-mədəni həyatına dair silsilə məqalələr çap olunub. Öz xalqının milli-mənəvi dəyərlərini tanıtmağa çalışan Əhməd Cəfəroğlunun bu jurnalda Azərbaycan haqqında 40-a yaxın məqaləsi çap olunub.

Jurnal yalnız Azərbaycana həsr olunmuş məqalələrlə kifayətlənməmiş, Türkiyə ilə birlikdə bütün Türk aləminə həsr olunmuş yazılar da nəşr edib.

“Azərbaycan Yurd Bilgisi” dərgisinin 36 nömrəsi nəşr olunduqdan sonra maddi-texniki imkansızlıq və digər təsirlərin nəticəsində dərginin nəşri dayandırılmış, lakin 20 ildən sonra 1954-cü ildə dərginin 37-ci nömrəsi nəşr olunsa da, onun nəşri həmişəlik dayandırılmışdır.